# Gülhüseyn Hüseynoğlu – "Mücrü"sü dolu yazıçı



**Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Azərbaycan Yazıçılar Birliyi və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Xalq yazıçısı, nasir və ədəbiyyatşünas Gülhüseyn Hüseynoğlunun 100 illik yubileyi münasibətilə ədəbi-bədii gecə keçirilib.**



Gülhüseyn Hüseynoğlunun "Mücrü", "Ömrümüz boyu", "Qatar gedir", "Çətin yol", "Yana-yana", "Məhəbbətdirmi bu?", "Müşfiqin yolu", "Müsfiq", "Etiraf", "Bir ömrün çıraqları" adlı bədii kitabları, monoqrafiyası, dərs vəsaiti və yüzlərcə elmi-publistik məqalələri geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanıb. O, şairliyi, yazıçılığı ilə yanaşı, böyük vətənpərvər olub. Aspiranturada oxuyarkən–1948-ci ildə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparan gizli təşkilatın yaradıcılarından biri kimi ittiham edilərək, məhkəmə hökmü ilə 25 illik həbs cəzasına məhkum olunub və yalnız 8 il sonra tam bəraət qazanıb. Mikayıl Müşfiqin tədqiqatı ilə geniş məşğul olan Gülhüseyn Hüseynoğlu ilk dəfə nakam şairin yaradıcılıq aləmini, özünəməxsus şair fərdiyyətini dissertasiyasında ətraflı araşdırıb.

AYB-nin sədri, Xalq yazıçısı Anar Rzayev onun taleyində mühüm rolu olmuş Gülhüseyn Hüseynoğlunun istedadlı yazıçı, gözəl pedaqoq, saf ürəkli, sakit təbiətli insan kimi keyfiyyətlərindən bəhs edərək deyib ki, mərhumun işıqlı xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaq.

Xalq yazıçıları Çingiz Adullayev və Elmira Axundova, AYB-nin katibi İlqar Fəhmi, Milli Məclisin Komitə sədrinin müavini Hikmət Babaoğlu, Bakı Dövlət Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Fikrət Şiriyev də Gülhüseyn Hüseynoğlu haqqında kövrək xatirələrini bölüşüblər.

Sonra tədbir iştirakçılarına Mədinə Abdullayeva və Qəmər Məmmədzadənin ifasında Gülhüseyn Hüseynoğlunun şeirləri əsasında "Yuxun şirin olsun" adlı kiçik səhnəcik təqdim olunub. Aktyorlar Firəngiz Babayeva, Gülər Nəbiyeva, Hüseynağa Aslanov, Jalə Novruzova yazıçının şeirlərindən dəyərli nümunələr səsləndiriblər. "Ana" hekayəsinin motivləri əsasında qısametrajlı film də nümayiş olunub.

***XQ***

Xalq qəzeti .- 2023.- 6 dekabr, № 266.- S.10.